# Bəxtiyar Vahabzadənin 90 illik yubileyi Ankarada qeyd olunub

AZƏRTAC-ın məlumatına görə Ankarada, TÜRKSOY, Azərbaycan və Türkiyənin Mədəniyyət və Turizm nazirlikləri və milli kitabxanaları tərəfindən Xalq Şairi, türk dünyasının görkəmli söz adamı Bəxtiyar Vahabzadənin anadan olmasının 90-cı ildönümü münasibətilə silsilə tədbirlər keçirilib.

TÜRKSOY-un mənzil-qərargahında təşkil edilən toplantıda Azərbaycan, Türkiyə və digər ölkələrin ədəbi dairələrinin nümayəndələri, nüfuzlu ziyalılar, gənc tədqiqatçılar iştirak ediblər. Əvvəlcə görkəmli şairin həyat və yaradıcılığından bəhs edən sənədli film nümayiş olunub.



Tədbirdə Türkiyə Milli Kitabxanasının direktoru Zülfi Toman, Azərbaycanın Ankaradakı səfiri Faiq Bağırov, Dünya Yazarlar və Ziyalılar Birliyinin sədri Osman Baş,  professor Nizami Cəfərov, TÜRKSOY-un baş katibi Düsen Kaseinov və digər natiqlər çıxış edərək Bəxtiyar Vahabzadənin zəngin ədəbi fəaliyyəti ilə bütün türk dünyasında dərin iz qoyduğunu söyləyiblər.

Qeyd edək ki, böyük şairin anadan olmasının 90-cı ildönümü ilə bağlı Ankaradan əvvəl Bakı və Bişkekdə də tədbirlər təşkil edib. Şairin “Türk dillərində Bəxtiyar Vahabzadənin 90 şeiri” kitabı nəfis tərtibatda çap edilib.

M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov qeyd edib ki, 60-a yaxın ölkədə 200-ə yaxın kitabı çap edilən Bəxtiyar Vahabzadə dünyada ən çox oxunan ədəbiyyatçılar sırasındadır. Toplantıda şairin adını daşıyan Ankaradakı orta məktəbin şagirdləri Bəxtiyar Vahabzadənin şeirlərini səsləndiriblər.

Sonda tədbir iştirakçıları Azərbaycan Milli Kitabxanası tərəfindən təşkil edilən Bəxtiyar Vahabzadənin kitablarından ibarət sərgi ilə tanış olublar. Təşkilatçı tərəf böyük şairimizin həyat və fəaliyyəti ilə bağlı daha bir təntənəli tədbiri Ankaradakı Bəxtiyar Vahabzadə adına orta məktəbdə təşkil edib.